

# SƏNƏT MƏBƏDİ

*Televiziya informasiya vasitəsi kimi cəmiyyətdə gedən ictimai prosesləri əks etdirən bir güzgüdür ki, onun mövcudluğu və inkişafı bilavasitə cəmiyyətdə gedən proseslərlə bağlıdır.*

*Televiziya bütövlükdə cəmiyyətimizin aynası, bizim ümumi mədəniyyətimizin, intellektual səviyyəmizin, mənəviyyatımızın, əxlaqımızın, təfəkkür tərzimizin bir parçasıdır.*

*Televiziya kütləvi informasiya vasitələrinin tərkib hissəsidir. Bildiyimiz kimi televiziya üç aspektdə: informasiya, maarifçilik, və əyləncə növündə fəaliyyət göstərir.*

Bütün insanların diqqət və nəzəri televiziya ekranlarındadır.

Biz hər gün televiziyanın sehrli qüvvəsini duyur və bu cazibəni heç nə ilə müqayisə edə bilmirik. Odur ki ekran qarşısında əyləşən, müxtəlif əqli-şüura malik olan insanların hər biri öz maraqları dairəsində şəxsi proqramlarını mavi ekranda seyr etməyə nail olmaq üçün maraq göstərirlər.

Qafqaz respublikalarında ilk dəfə olaraq 1956-cı il fevral ayının 14-də Bakıda mavi ekran fəaliyyət göstərməyə başladı. Düz 50 il əvvəl kiçik bir studiyadan efirə çıxan milli televiziya Azərbaycan mədəniyyəti tarixinə böyük bir hadisə kimi yazıldı. Həmin gün bu kiçik studiyadan əvvəlcə diktor xəbərləri oxudu, sonra isə «Bəxtiyar» bədii filmi efirə verildi. O gündən Mehdi Hüseyn küçəsi milyonlarla Azərbaycan vətəndaşının yaddaşına hopub, bu günümüzün, yaddaşımızın ən dərin qatlarında müqəddəs, ülvi bir sənət məbədi, sehrli bir ünvan kimi yaşayır. Əvvəlcə, Bakıda yayımlanan televiziya verilişləri, sonralar böyük şəhərlərə, daha sonra rayonlara yayımlandı.

Respublika televiziyası yarandığı gündən öz fəaliyyətini mərkəzi televiziyanın proqramı və iş üsulu əsasında qurmuşdu.

İlk gündən diktor xəbərlər oxuyandan sonra bədii film efirə verilirdisə, sonra canlı konsertlərlə tamaşaçı qarşısına çıxan televiziya asta-asta rəğbət qazanmağa başladı. Radio dalğalarında səsini hər zaman eşitdiyi musiqi korifeylərinin artıq təsvirini görərək, canlı səsinin, ifasının birbişa şahidi olan tamaşaçı özündə yeni bir görümdünya tapırdı. Televiziyanın yaranması insanlar arasında yeni bir səmimiyyət, ünsiyyət yaratdı.

Mavi ekranda ilk növbədə ünsiyyət körpüsü yaradan diktordu. Televiziya yarananda ilk diktorlarımız Nəcibə Məlikova, Hökümə Qurbanova, Həsən Turabov, Sara Manafova, Nizami Məmmədov və başqaları olmuşlar. Sonralar isə bu sənətə Natəvan Hacıyeva, Roza Tağıyeva, Tamilla Ələkbərova, Rafiq Hüseynov, Həqiqət Əsgərzadə kimi istedadlı diktorlar gəlmiş və yaddaqalan fəaliyyət göstərmişlər.

«Bakı Televiziya Studiyası» kimi fəaliyyətə başlayan televiziyaya, radiodan Ənvər Əlibəylini, Seyfəddin Dağlını, Azərnəşrdən Tofiq Axundovu rəhbər işə dəvət etdilər. Baş rejissor vəzifəsinə radiodan şöbə müdiri və rejissor işləyən istedadlı rejissorumuz Rauf Kazımovskini təyin etdilər.Baş rəssam vəzifəsi Habil Kazımova tapşırıldı. Kiçik bir studiyadan bir kamera ilə fəaliyyətə başlayan televiziya tez bir zamanda işini qurmağa başladı. İlk teleoperator Pircan Cəbiyev olmuşdur.

Rauf Kazımovski 1952-ci ildə teatr institutunda pedaqoq-rejissor Mehdi Məmmədovun kursunu bir yerdə bitirdiyi dostlarını rejissor kimi fəaliyyət göstərməyə dəvət etdi və televiziyada iş genişlənməyə başladı.

Arif Babayev, Kamil Rüstəmbəyov, İsmət Səfərəlibəyov, Sabir Aslanov,gənc tamaşaçılar teatrından dəvət olunmuş Ağəli Dadaşov televiziyaya gəldikdən sonra xeyli irəliləyiş oldu. Daha sonra Fikrət Qaradağlı, Bunyad Məmmədov, Tahir Tahirov bu işə cəlb olundular.

1956-cı ilin fevral ayının 14-də müntəzəm verilişlərə başladıqdan sonra, tədricən bədii proqramlara, o cümlədən, tamaşa hazırlığına da diqqət yetirildi. Nəriman Nərimanovun «Şamdan bəy» pyesinin



Azərbaycan televiziyası – 50

əsasında rejissor Rauf Kazımovskinin hazırladığı eyniadlı tamaşa 1956-cı ilin iyul ayında canlı şəkildə tamaşaçılara təqdim olundu. Şamdan bəy rolunun ifaçısı böyük sənətkarımız Hənəağa Salayev idi. Milli televiziyada tamaşa məktəbinin əsasını qoyan bu əsər böyük rezonansa səbəb oldu. Habil Kazımov bu tamaşaya tərtibat verərək televiziyada quruluşçu rəssam sənətkarlığının əsasını qoydu.



Sonra Arif Babayev Rəsul Rzanın «Qanun», Ağəli Dadaşov N.B. Vəzirovun «Dağılan tifaq», Kamil Rüstəmbəyov 1959-cu ildə Səməd Vurğunun «Aygün» poeması əsasında tamaşa hazırladı. Bir il sonra o, həmin quruluş əsasında ssenari müəllifi və rejissoru kimi televiziya tarixində ilk dəfə «Aygün» adlı bədii film çəkmişdir. Televiziyada Azərbaycantelefilm belə yarandı. Baş rolların ifaçıları Nəcibə Məlikova və Həsənağa Salayev idi. Bir neçə ildən sonra televiziyada film-konsertin əsası qoyuldu. İstedadlı rejissorumuz Arif Qazıyev böyük bəstəkarımız Fikrət Əmirovun «Şur» simfonik muğamına quruluş verərək ona ekran həyatı bəxş etdi. Beləliklə, «Şur» adlı film-konsert ərsəyə gəldi. 1967-ci ildə tamaşaçılar onu mavi ekrandan çox gözəl qarşıladılar.

Estetiklər dünya miqyasında televiziyanı, «danışan və danışdıran» tarix kimi də şərh edirlər. Bu gün Azərbaycanda televiziya kanalları çox olsa da, yenə də lazım olduqda Azərbaycan Televiziyasının arxivinə müraciət edirlər.

Bir vaxtlar sənətkarların hazırladıqları filmlər, konsertlər, verilişlər, tamaşalar, telefilmlər televiziyanın arxivini zənginləşdirib. Bəzən elə olur ki, başqa kanallar bizim arxivdən götürülən materialları efirə verərkən, axırda yaradıcı heyətin titrlərini efirə vermirlər. Əslində efir etikasına görə titr efirə aydınlıq və mədəniyyət gətirən bir amil olduğu üçün, hazırlanan verilişin axırında istifadə olunan materialların haradan götürülməsi və təşəkkür qeyd olunmalıdır.

Azərbaycan Televiziyasının yaranması ilə milli mədəniyyətimizdə nə baş verdi ? - Azərbaycan elektron mediyası erasına daxil oldu. Neçə əsr keçsə belə bu tarix qeyd olunacaq. Azərbaycan Televiziya məkanı və televiziya anlamı yarandı və əyanilәşərək təcrübəyə keçdi.

Bugünkü televiziyaların bütün yaradıcı heyəti, bu televiziyanın texniki və ayrı-ayrı yaradıcı qruplarının içindən doğulublar və formalaşıblar.

Azərbaycan Televiziyasının yaranması ilə respublikamız dünya sivilizasiyasına inteqrasiya etdi.

Azərbaycan Televiziyası deyilən mədəniyyət ocağının yaranması, fəaliyyəti və yaratdığı zəngin, qüdrətli, möhtəşəm ənənə Azərbaycan xalqının internet erasına keçməsini təminatlandırdı.

Müxtəlif illərdə adları dəyişən, bu gün isə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti adlanan bu sənət ocağı milli mədəniyyətimizdə misilsiz işlər görür və görməkdədir.

Televiziyanın fəaliyyəti həmişə zamanla ölçülüb və qurulub.Televiziya sənəti özünəməxsus obrazlı ifadə vasitələri yaratmış və yaratmaqdadır. Nəzərə almaq lazımdır ki, televiziya «göstərən» sənətdir. Bugünkü Azərbaycanın Televiziya məkanı dövrümüzün həqiqətlərini, reallıqlarını cəmiyyətə çatdırmağa çalışır.

Bu yolda ona uğurlar arzulayırıq!

***R.İsmayılov,***
*Az.TV uşaq, gənclik və idman redaksiyasının baş rejissoru*


### *İstifadə olunan ədəbiyyat*

1. *Q.Məhərrəmli – «Televiziya haqqında etüdlər». B. Azərbaycan Dövlət Nəşriyyatı 1996.*
2. *A.Dadaşov – «Gerçəkliyin astanasında». B. İşıq Nəşriyyatı 1992.*
3. *E.Quliyev – «Televiziya: nəzəriyyə və inkişaf meylləri.» B. Şərq-Qərb Nəşriyyatı 2004.*
4. *İ.Rəhimli – «Bir ünvan-milyon mənzil». Televiziya verilişi (Rejissor Ələkbər Kazımovski). B. 2005.*
5. *A.Dadaşov – Q.Məhərrəmov. «Televiziya və radio tamaşaları» B. Təhsil Nəşriyyatı 1999.*